# Müəllimin tədris fəaliyyətinə verilən müasir tələblər

**Şəhriyar Məzahir oğlu Məcidov**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
**E-mail:** shehriyarmecidov1990@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. A.X. Hacıyev,
p.ü.f.d., dos. İ.A. Cavadov

**Açar sözlər:** müəllim, tədris fəaliyyəti, keyfiyyət, təlim, tələb
**Ключевые слова:** учитель, педагогическая деятельность, качество, обучение, требование
**Key words:** teacher, pedagogical activity, quality, training, demand

Müəllimə hər zaman cəmiyyət və dövlət tərəfindən xüsusi diqqət ayrılıb, onun şəxsiyyəti və şəxsi nümunəsi hamı üçün örnək olub. Eyni zamanda müəllim şəxsiyyətinə cəmiyyət tərəfindən müəyyən tələblər də verilmişdir. Müəllimə verilən tələblər özünü müəllimin şəxsiyyətinə və tədris fəaliyyətinə verilən tələblər kimi iki formada büruzə verir.

Müəllimin tədris fəaliyyəti zamanın və cəmiyyətin tələblərini, təhsilin inkişaf səviyyəsini, texniki tərəqqinin göstəricilərini həmişə özündə ehtiva etmiş və onları nəzərə almışdır.

Müəllimə verilən tələblərdən danışan zaman öncə ulu öndər Heydər Əliyevin bu xüsusda müəllim haqqında dediklərini xatırlamaq yerinə düşər. O deyirdi: "Orta məktəb müəllimlərinin siması haqqında bir neçə söz demək istəyirəm. Müəllim məktəbdə örnək olmalı, dərslərdə və sinifdənkənar məşğələlərdə təbliğ etdiyi əxlaq normalarını öz şəxsi nümunəsi ilə möhkəmləndirməlidir. Davranışında da, söz söhbətində də, geyimində də. Axı hər bir müəllimi daim onlarca diqqətli, tələbkar uşaq gözü müşahidə edir. Uşaqlar isə saxtakarlığı, xüsusilə, tez görüb duyurlar, onlar öz tərbiyəçilərinin sözü ilə işi arasındakı fərqin üstündən keçmirlər. Buna görə müəllimin mənəvi aləmi və zahiri siması uşaqlara aşılamaq istədiyi ideala uyğun gəlməlidir. Müəllim sadə, təvazökar və səliqəli olmalı, işə bər-bəzəkli gəlməməlidir. Lakin ayrı-ayrı məktəblərdə müəllim otaqları moda nümayişi salonlarına çevrilir (1).

Yuxarıdakı fikirlərə diqqət edəndə müəllimə verilən tələblərin necə dəqiqliklə, həssaslıqla verildiyinin şahidi oluruq. Bu xüsusda qeyd olunan ən vacib tələb, əlbəttə, müəllimin bütün cəhətləri ilə cəmiyyətdə nümunə olması, sözü ilə davranışı arasında bağlılığın olması xüsusilə vurğulanır.

İstər müəllimin şəxsiyyətinə, istərsə də tədris fəaliyyətinə tarixən müəyyən tələblər qoyulmuş, ondan gözləntilər irəli sürülmüşdür. Yaranma tarixi qədim olan müəllim peşəsi bütün dövrün sınaqlarından çıxaraq bu günümüzə qədər gəlib çatmış, cəmiyyətin elmi biliklərə yiyələnməsini təmin edən, insanların bir şəxsiyyət kimi formalaşmasına bilavasitə təsir edən peşə kimi öz nüfuzunu qoruya bilmişdir.

Keçdiyi tarixi yolda müəllim peşəsinə, müəllimə verilən tələblər eyni qalmamışdır və qala bilməzdi. Cəmiyyət inkişaf etdikcə, texnoloji inqilablar bir-birini əvəzlədikcə bütün peşələrə və peşə sahiblərinə verilən tələblər də dəyişilmiş, yenilənmiş, müasir dövrlə səsləşmişdir.

Əlbəttə, zaman-zaman müəllimə verilən tələblər həmin dövr üçün müasir olmuş, mövcud tarixi vəziyyətlə səsləşmiş, elmi-pedaqoji nailiyyətləri, inkişaf səviyyəsini özündə ehtiva etmişdir. Bugünkü tələblər də tarixən müəllimə və onun tədris fəaliyyətinə verilən tələblərdən

qaynaqlanmış, təkmilləşmiş, yeni məzmun və xarakter kəsb etmişdir.

Zaman keçdikcə müəllimin tədris fəaliyyətinə verilən tələblərin bir qismi öz aktuallığını itirmiş və yeniləri ilə əvəz olunmuş, bir qismi isə təkmilləşmiş, bütün tarixi dövrlər ərzində tələblər sistemində özünə yer ala bilmişdir.

Pedaqoji fikir tarixinə diqqət yetirdikdə müəllimə müəyyən tələblər verilməklə yanaşı, onun şəxsiyyətinə və tədris fəaliyyətinə də yüksək qiymət verildiyini görmək olur. Yunan filosofu Platondan – "Sən atanı, yoxsa müəllimini çox istəyirsən?" soruşduqda, o, müəllimimi - deyə cavab verir. Çünki atam məni göydən yerə endirdi, müəllimim isə yerdən göylərə qaldırdı" deyə cavab vermişdir.

Hər bir ictimai peşənin xarakterində müəyyən prinsiplər əsas rola malik olur. Müəllim peşəsinin də bu kimi prinsipləri sırasında humanizm prinsipi əsasdır. Çünki müəllim gənc nəslin təlim tərbiyəsi ilə məşğul olur. Onda bir şəxsiyyət kimi humanizm və insansevərlik hisləri zəif olarsa, o tərbiyə etdiyi şəxsə düzgün yanaşa bilməz, ona müsbət təsir göstərə bilməz.

Tarixən olduğu kimi müasir dövrdə də müəllimin şəxsiyyətinə, xüsusən, onun tədris fəaliyyəti ilə bağlı böyük tələblər irəli sürülür və hər bir müəllimdən bunları yerinə yetirmək tələb olunur.

Bir məsələni qeyd etmək lazımdır ki, müəllimin tədris fəaliyyətinə verilən müasir tələblər əhatəliliyinə, strukturuna görə daha genişdir. Buna həm cəmiyyətin bugünkü inkişaf səviyyəsi, həm də  qarşıya qoyulmuş məqsədlərin genişliyi təsir göstərir. Çünki cəmiyyət özü daim inkişafdadır. Bu inkişafı təmin edən əsas sahə, əlbəttə, təhsildir. Təhsili isə inkişaf etdirən təhsil işçiləri – müəllimlərdir.

Müəllimlik peşəsi daim yenilәşən, strukturu baxımdan mürəkkəb, çoxcəhətli peşədir. Daim yeniləşməsi bu peşəyə verilən tələblərin də tez-tez dəyişməsinə, struktur baxımdan mürəkkəbliyi ona verilən tələblərin də müərkkəbliyinə, çoxcəhətliliyi isə müəllimə verilən tələblərin də çoxcəhətli olmasına gətirib çxarır. Onun bu xüsusiyyətlərini nəzərdə tutan prof. M. İlyasov yazır: "İlk baxışda sadə görünən müəllimlik peşəsi mürəkkəb struktura malik peşədir. Bu mürəkkəblik ilk növbədə onun obyektinin canlı insan, predmetinin isə onların təhsili, tərbiyəsi, bir şəxsiyyət kimi formalaşdırılması olmasından irəli gəlir. Bu strukturda müəllim fəaliyyətinin obyekti, predmeti, vasitələri, metodları, istifadə edilən metodikalar və texnologiyalar özünə yer alır ki, bunların da düzgün seçilməsi, müəyyənləşdirilməsi və tətbiqi pedaqoji peşəkarlığı səciyyələndirən amillər kimi özünü göstərir. Bu proses isə daim inkişafda və yeniləşmədə olduğundan müəllim fəaliyyətində uğur qazanmaq, bu inkişaf və dəyişmələrlə ayaqlaşa bilmək üçün daim irəliyə doğru hərəkət etmək, bilik, bacarıq və vərdişləri təkmilləşdirmək, pedaqoji təcrübəni zənginləşdirmək lazım gəlir" (2, s. 26).

Bu fikirlərdən belə qənaətə gəlmək olur ki, mürəkkəb və çoxcəhətli peşə olan müəllimlik peşəsində uğur qazanmaq irəli sürülən tələblərlə ayaqlaşa bilməkdən asılıdır. Bunun üçün isə müəllim daim öz üzərində işləməli, bilik və bacarıqlarının artırılmasının, metodikasının zənginləşməsinin qayğısına qalmalıdır.

Prof. M.C. Mahmudov müəllimin tədris fəaliyətinə verilən müasir tələblərdən danışarkən yazır: "Hazırda müəllimlərin qarşısına yeni tələblər qoyulur və onlar öz vəzifələrini yeni, müasir tələblər səviyyəsində qurmaq üçün kurikulum, pedaqogika sahəsində, elektron resurslarının inkişafında  və.s baş verən yenilikləri ardıcıl öyrənməlidir" (3, s .9).

Demək, müəllimin müasir tələblərə cavab verməsi deyiləndə onun elm və texnologiya sahəsində olan yeniliklərdən xəbərdar olması əsas şərt kimi irəli sürülür. Dərs zamanı müasir təlim texnologiyalarından istifadə etmədən müasir tələblərə cavab verən dərs qurmaq mümkün deyil. Məktəb təcrübəsinin öyrənilməsi zamanı bir qisim müəllimin bu sahədə günün tələb-

lərinə cavab verməkdə çətinlik çəkdiklərinin, digərlərinin isə bu işə səhlənkar yanaşdığının şahidi oluruq. Bəzən də görürük ki, bir qisim müəllimlər nəinki müasir texnologiyaları praktikaya tətbiq edə bilmir, hətta bu anlayışların nəzəri baxımdan da mahiyyətinə bələd deyillər. Əlbəttə, bu sahədə uğur qazanan müəllimlərimiz də az deyil.

Müasir təlim texnologiyalarını bilmək və praktikaya tətbiq etmək üçün müəllim öz ixtisasından əlavə pedaqogika elminin nailiyyətlərindən və elmi müddəalarından bəhrələnməlidir. Eyni zamanda texnikanın imkanlarından istifadə etmək bacarığı müəllim üçün əsas göstəricidir.

Müəllimin tədris fəaliyyətinə verilən müasir tələblərdən bəhs edərkən pedaqogika üzrə fəlsəfə doktoru Aygün Məcidova yazır: "Müəllim yüksək bilik və bacarığa malik olmalı, sənətini sevməli, dəyərləndirməli, daim yeniliklər axtarışında olmalı, şagirdlərini müasir üsullarla inkişaf etdirməli, onlarda fənninə maraq oyatmalı və qarşıya qoyulmuş çətinlikləri əzmlə qarşılamalıdır" (4, s. 52 ).

Burada müəllimə həm öz ixtisası üzrə dərin bilik və bacarığa malik olmaq, həm də yeni metodlardan istifadə etmək kimi tələblər verilir. Müəllimin daim yeniliklərə can atması, axtarış aparması, şagirdlərin təlim fəaliyyətini stimullaşdırması və s. cəhətlər də əsas tələb kimi irəli sürülür.

Pedaqoji ədəbiyyatı təhlil edən zaman müəllimə verilən tələblər arasında aşağıdakılara da rast gəlmək olur:

— Hər bir şagirdi hörmət və qayğı ilə əhatə edin
— Şagirdi şəxsən tərifləyin, tənqid edəndə də fərq qoymayın.
— Şagirdə onun yerinə yetirə biləcəyi tapşırığı verin.
— Şagirdi başqası ilə müqayisə etməyin, onu başqasına nümunə göstərməyin.
— Şagirdinizə olan rəğbətinizi qabarıq göstərməyin (5, s. 60).

Müəllim cəmiyyətin elə bir üzvüdür və elə bir fəaliyyət sahəsi ilə məşğul olur ki, o, daim böyük auditoriyanın diqqət mərkəzində dayanır. Müasir müəllim ixtisas və metodiki bilik və bacarıqlarının inkişafının qayğısına qaldığı kimi, müəllim obrazının inkişafına da diqqət etməlidir. Müəllim imici müasir dövrdə bu peşədə diqqət ayrılmasını tələb edən vacib məsələdir. Bunu nəzərə alan Gülüstan Ağazadə "Müasir müəllimin imici" məqaləsində yazır: "Müəllim imici özündə aşağıdakı struktur komponentləri birləşdirir: şəxsi keyfiyyətlər, peşəkar fəaliyyət və davranışın kommunikativ xüsusiyyətləri. Bu yolda ilk addım xarici görünüş, ikinci addım ünsiyyətin verbal və qeyri-verbal vasitələri, üçüncü addım isə müəllimin həyat obrazıdır.

Diqqət edəndə hər üç cəhətin müəllim üçün vacib olduğunu görürük. Müəllim ilk növbədə, əlbəttə, geyim tərzinə diqqət etməlidir. Geyim tərzi tələb olunan səviyyədə olan müəllim şagirdlər tərəfindən daha yaxşı qəbul edilir. İkinci komponent də müəllim imici üçün olduqca vacibdir. Müəllimin ünsiyyət tərzi, onun səs tonu, tembri, jest və mimikaları düzgün olduqda müəllim-şagird münasibətləri daha isti, səmimi qurulur. Üçüncü komponent də müəllimin bir şəxsiyyət kimi sosial mühitdə özünün necə xarakterizə etdiyinin sərhədlərini müəyyənləşdirir" (6, s. 61).

Qeyd olunan bu məsələlər müəyyən mənada müəllimə verilən digər tələblərlə səsləşir. Burada geyim tərzi ilə bağlı irəli sürülən tələb zahirən diqqət çəkməsə də, müəllim üçün əhəmiyyətlidir. Belə ki, müəllim öz sadə, eyni zamanda zövqlü geyim tərzi ilə də nümunə olmağı bacarmalıdır.

Müəllimin tədris fəaliyyətinə verilən müasir tələblərlə bağlı verilmiş fikirlər, əlbəttə, bu sahəni bütövlükdə əhatə edə bilmir. Lakin əksər fikirlərdə müasirlik anlayışı tədrisin texniki

tərəfi ilə daha çox xarakterizə olunur. Əlbəttə, texniki tərəqqinin bütün sahələrdə aktiv tətbiq olunduğu bir dövrdə müəllimin tədris fəaliyyəti də bundan yan qala bilməz. Lakin müasir tələb deyilərkən yalnız təlimin - tədrisin texniki göstəricilərinin nəzərə alınması birtərəfli yanaşmadır.

Müəllimin tədris fəaliyyətinə verilən müasir tələbləri bu istiqamətdə aparılmış elmi-nəzəri tədqiqata və məktəb təcrübəsinin təhlilinə əsaslanaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Müəllimin peşə sevgisi
2. Müəllimin ixtisasına uyğun biliklər sisteminə yiyələnməsi
3. Müəllimin öyrətmə metodikası
4. Müəllimin şagird şəxsiyyətinə diqqət və qayğısı
5. Müəllimin əməkdaşlıq səviyyəsi
6. Müəllimin pedaqoji texnologiyalara yiyələnməsi
7. Müəllimin texniki vasitələrdən istifadə etmə bacarığı
8. Müəllimin tədqiqatçı və yaradıcı olması
9. Müəllimin psixoloji biliklərə sahib olması
10. Milli və beynəlxalq təcrübəni öyrənməsi

Göstərilən hər bir tələb öz xarakterinə və mahiyyətinə görə müasirdir. Öz tədris fəaliyyətini bu tələblər səviyyəsində qurmağı bacaran hər bir müəllim mütləq işində uğur qazanacaq, seçiləcəkdir. Növbəti yazılarada hər bir tələbdən irəli gələn məsələlər ayrı-ayrılıqda təhlil olunacaqdır.

**Məqalənin aktuallığı.** Müəllimin tədris fəaliyyətinə verilən müasir tələblər böyük əhəmiyyət daşıyır. Belə ki, hər bir müəllimin tədris fəaliyyətinin keyfiyyəti və səmərəsi onun müasir tələblərə nə dərəcədə cavab verməsindən asılıdır.

**Məqalənin elmi yeniliyi.** Müəllimin tədris fəaliyyətinin keyfiyyətini və səmərəliliyini artırmaq üçün tədris fəaliyyətinə verilən müasir tələblər diqqətdə saxlanılmış və onların əhəmiyyəti elmi-nəzəri faktlarla əsaslandırılmış, bu sahədə deyilən fikirlərə nəzər salmaq yolu ilə yeni müddəalar irəli sürülmüşdür.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müəllimin tədris fəaliyyətinə verilən müasir tələblərlə bağlı müəllimlərə zəruri biliklər veriləcək və onların tədris fəaliyyətinin həmin tələblərə uyğun qurulması üçün praktik imkanlar yaradacaqdır.

## Ədəbiyyat

1. Əliyev, H.Ə. Gənclərin əmək, əxlaq və ideya siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli / H.Ə. Əliyev. - Bakı: Azərnəşr, - 1982.

2. İlyasov, M. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri / - Bakı: Elm və təhsil, - 2018. - 208 s.

3. Mahmudov, M. Riyaziyyatın tədrisi və müəllim hazırlığının modernləşdirilməsi // Bakı: - Kurikulum, - 2015. № 2, -s. 5-11.

4. Məcidova, A. Şagird fəaliyyətinin motivasiyası və stimullaşdırılması // - Kurikulum, - 2014. № 4, - s. 50-56.

5. Hacıyeva, T. Yeni qiymətləndirmə sistemi: formativ qiymətlənirmə // Kurikulum, - 2008. № 4, - s. 54-61.

6. Ağazadə G. Müasir müəllimin imici //- Kurikulum, -2011. № 4, -s. 59-62.

**Ш.М. Маджидов**

## Современные требования предъявляемые к учебной деятельности учителя


### Резюме

В статье рассматриваются современные требования предъявляемые к учебной деятельности учителя.

Таким образом, учитель как специалист по управлению педагогическим процессом планирует, реализует и оценивает преподавание. Время от времени учебная деятельность учителя приобретает новые качества и обогащается. Каждый учитель должен выполнить ряд работ для повышения качества и эффективности своей учебной деятельности. Современные требования предъявляемые к педагогической деятельности учителя вытекают именно из этой необходимости. Каждому учителю полезно строить свою деятельность на уровне этих требований и следовать им в обучении.


**S.M. Majidov**

## Modern requırements for the teacher's educatıonal actıvıtıes


### Summary

The article discusses the modern requirements for the educational activities of the teacher.

Thus, the teacher, as a specialist in managing the pedagogical process, plans, implements and evaluates teaching. From time to time, the teaching activity of the teacher acquires new qualities and is enriched. Each teacher must perform a series of works to improve the quality and effectiveness of their teaching activities. Modern requirements for the pedagogical activity of a teacher follow precisely from this need. It is useful for every teacher to build his activities on the level of these requirements and follow them in teaching.


**Redaksiyaya daxil olub:** 20.04.2021